**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi**


# BƏLƏDİYYƏ ORQANININ BÜDCƏSİNİN İCRASININ STATİSTİK MÜŞAHİDƏSİNƏ DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**01.05.2013**


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
nuru@azstat.org, + 994 12 538 74 50

# Mündəricat


1. Statistik prosesə və məhsullara giriş........................................................ 3

2. Aktuallıq........................................................................................................ 4

3. Dəqiqlik.......................................................................................................... 4

4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə................................ 5

5. Bərabər giriş və aydınlıq.............................................................................. 6

6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik............................................... 6

7. Çıxış keyfiyyət komponentləri arasında seçim........................................... 7

8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................. 7

9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük....................................... 7

10. Məxfilik, şəffaflıq və təhlükəsizlik............................................................ 8

11. Yekun........................................................................................................... 8

## 1. Statistik prosesə və məhsullara giriş

***Müşahidənin qısa təsviri***

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin Dövlət maliyyəsi və bank statistikası sektoru yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının büdcəsinin icrasına dair statistik hesabat tərtib edir.

Məlum olduğu kimi, yerli özünüidarəetmə orqanları istənilən demokratik quruluşun əsaslarından birini təşkil edir. Demokratik cəhətdən inkişaf etmiş ölkələrin çoxillik təcrübəsi göstərir ki, hər bir regionun sosial-iqtisadi potensialından tam səmərəli istifadə etmək və əhalinin maddi rifahını yaxşılaşdırmaq üçün dövlət idarəçilik orqanları ilə yanaşı, yerli dövlət idarəçiliyinin də böyük rolu var. Azərbaycan Respublikasının "Bələdiyyələrin statusu haqqında" Qanununa əsasən yerli özünüidarə elə bir qeyri-dövlət sistemidir ki, bu sistem qanun çərçivəsində onlara yerli əhəmiyyətli məsələləri müstəqil şəkildə həll etməyə imkan verir. Yerli əhəmiyyətli məsələlər bələdiyyə əhalisinin həyat fəaliyyətinin bilavasitə təmin edilməsi ilə bağlı olan məsələlərdir. Bələdiyyə orqanlarının fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi bələdiyyə orqanlarından yığılan hesabatlar vasitəsilə yerli büdcənin gəlirləri, xərcləri və nəticələri, xərclərin funksional və iqtisadi təsnifat üzrə bölgüsü haqqında məlumatlar əldə edir.

Bu məlumatlar əsasında bələdiyyə büdcələrinin gəlirləri və xərcləri, bələdiyyələrin sayı haqqında daha ətraflı məlumatlar əldə etməklə "Bələdiyyə orqanının büdcəsinin icrasına dair" statistik bülleten buraxılır.

***Müşahidə vahidləri***

Bələdiyyə orqanının büdcəsinin icrasına dair hesabatların hazırlanmasında ölkə üzrə 1718 bələdiyyə orqanı iştirak etmişdir. Onun 171-i Naxçıvan MR-da, 52-i Bakı şəhəri ərazisində, yerdə qalan digər bələdiyyə orqanları isə respublikanın ayrı-ayrı rayonlarında fəaliyyət göstərir.

***Əhatə***

Əhatə dairəsi ümumilikdə bütün ölkə ərazisini əhatə edir. Buraya ölkənin bütün bələdiyyə orqanı mövcud olan inzibati ərazi vahidləri daxildir.

***Əsas göstəricilər:***

- Yerli büdcənin gəlirləri;
- Vergilərdən daxilolmalar;
- Vergi olmayan gəlirlər;
- Digər gəlirlər;
- Yerli büdcənin xərcləri;
- Profisit (+), kəsir (-);
- Kəsirin bağlanması ilə bağlı daxilolmalar.

***Sorğu vərəqəsi***

Bələdiyyə orqanının büdcəsinin icrasına dair hesabat formasının tərtib olunmasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 12 iyun 2010-cu il tarixli 34/8 N-li sərəncamı ilə təsdiqlənmiş 1-BB N-li "Yerli özünüidarəetmə (bələdiyyə) orqanının büdcəsinin icrasına dair" hesabatın tərtib edilməsinə dair Göstərişlərə istinad edilir. Yerli özünüidarəetmə orqanları hesabatı hesabat rübündən sonrakı ayın 30-na kimi və il başa çatdıqdan sonra 45 gün müddətində yerləşdiyi rayonun (şəhərin) statistika orqanına təqdim etməlidirlər.

## 2. Aktuallıq

Mütəmadi olaraq dərc olunan rüblük və illik bülletenlər vasitəsilə istifadəçilər iqtisadi regionlar üzrə bələdiyyələrin sayı, bələdiyyə büdcələrinin gəlirləri və daxilolmaları, funksional və iqtisadi təsnifatlar bölgüsündə xərcləri, qeyri-vergi gəlirləri, digər gəlirləri haqqında məlumat əldə edə bilərlər. Məlumatların uzunmüddətli dinamika sıraları şəklində dərc olunmasına dair işlər aparılır.

Bələdiyyə büdcələrinin icrasına dair məlumatlar "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının vahid büdcə təsnifatına və BVF-in Dövlət Maliyyəsinə Dair Vəsaitinə (GFSM) uyğun hazırlanır.

## 3. Dəqiqlik

Yekun məlumatların iqtisadi əhəmiyyətini nəzərə alaraq, vaxtlı-vaxtında və keyfiyyətli məlumatlar əldə etmək məqsədilə onların onlayn rejimində qəbul edilməsi üçün xüsusi proqram hazırlanmışdır. Bu proqram əsas etibarilə məlumatlar üzərində nəzarəti həyata keçirir ki, bu da öz növbəsində xətaların qarşısını alır.

### *D4. Sorğuya cavab vermiş vahidlərin xüsusi çəkisi (hesabat intizamı)*

***Cədvəl № 1***

| | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|
| Məlumatların toplanması üçün fəaliyyətdə olan bələdiyyələrin sayı | 2755 | 1722 | 1718 | 1718 |
| Hesabat təqdim etmiş bələdiyyələrin sayı | 2755 | 1722 | 1718 | 1718 |
| Hesabat təqdim etmiş bələdiyyələrin xüsusi çəkisi (%) | 100,0% | 100% | 100% | 100,0% |

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin “2012-ci il üçün statistik işlər proqramı”nın “Maliyyə və bank statistikası bölməsi”nin 22-ci bəndində yerli özünüidarəetmə orqanlarının (bələdiyyə) büdcəsinin icrası haqqında hesabatların yığılması nəzərdə tutulmuşdur.

2012-ci ilin bir neçə ayı üzrə ***V2 (hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayı)*** göstəricisi (son nəticələrin vaxtlı-vaxtında olması)

***Cədvəl № 2***

| Hesabat dövrü | 30.03.2012 | 30.06.2012 | 30.09.2012 |
|---|---|---|---|
| Nəşr tarixi | 25.05.2012 | 25.08.2012 | 25.11.2012 |
| Aralıq vaxt (laq), təqvim günü | 56 gün | 56 gün | 56 gün |
| Aralıq vaxt (laq), iş günü | 39 gün | 38 gün | 37 gün |

2012-ci ilin bir neçə ayı üzrə ***V3*** göstəricisi (nəşrin tam vaxtında yerinə yetirilməsi)

***Cədvəl № 3***

| Hesabat dövrü | 30.03.2012 | 30.06.2012 | 30.09.2012 |
|---|---|---|---|
| Elan edilmiş nəşr tarixi | 25.05.2012 | 25.08.2012 | 25.11.2012 |
| Faktiki nəşr tarixi | 24.05.2012 | 25.08.2012 | 24.11.2012 |
| Aralıq vaxt (laq) | -1 | 0 | -1 |

## 5. Bərabər giriş və aydınlıq

Yekunda daxil olmuş hesabatların göstəriciləri əsasında bütövlükdə ölkə üzrə və eyni zamanda ölkənin iqtisadi rayonları üzrə bələdiyyələrin sayı, bələdiyyə büdcələrinin gəlirləri və xərcləri, vergilərdən daxilolmalar, qeyri-vergi gəlirləri haqqında məlumatları özündə əks etdirən "Bələdiyyə orqanının büdcəsinin icrasına dair" statistik bülleten buraxılır.

Eyni zamanda bu göstəricilər əsasında illik məlumatları özündə əks etdirən statistik məcmuə hazırlanır və istifadəçilərə təqdim olunur. Bundan əlavə göstəricilər və hesabat formalarına dair metaməlumatlar da mövcuddur. Bu məlumatları www.stat.gov.az/menu/7/ saytından əldə etmək mümkündür.

### *BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı*

Qeyd olunduğu kimi hesabatların yekun məlumatlarına əsasən "Bələdiyyə orqanının büdcəsinin icrasına dair" bülleten - 30 nüsxədə dərc olunur ki, onlardan:

- 5 nüsxə Dövlət Statistika Komitəsinin rəhbərliyinə və digər şöbələrə;
- 15 nüsxə müxtəlif nazirliklərə və digər dövlət orqanlarına;
- 10 nüsxə digər istifadəçilərə verilir.

### *BA2. Onlayn məlumat bazasına girişlərin sayı*

http://www.stat.gov.az/link_click_counter/-də maliyyə və bank statistikası məhsulundan istifadəçilərin istifadə %-ləri daimi əks etdirilir. Mayın 1-i vəziyyətinə 13013 ümumi istifadəçidən 634-ü ( 4,9%) maliyyə və bank statistikası məhsulunun istifadəçisi olmuşdur.

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Bələdiyyə orqanının büdcəsinin icrasına dair məlumatlar 1999-cu ildə qəbul edilmiş "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa və BVF-in Dövlət Maliyyəsinə Dair Vəsaitinə (GFSM 2001) əsaslanan Dövlət büdcəsinin gəlir və xərclərinin vahid təsnifatına uyğun hazırlanır və bununla da məlumatların beynəlxalq müqayisəsi təmin edilir.

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin Dövlət maliyyəsi və bank statistikası sektoru statistik hesabatların daxil olma anından başlayaraq bütün keyfiyyət aspektlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir. Dəqiqlik aspekti üzrə ilkin məlumatların toplanmasına daim nəzarət edilir. Aktuallıq aspekti üzrə məlumatların yığımı, emalı və yayılması zamanı operativlik gözlənilir. Vaxtlı-vaxtında olma aspekti üzrə hesabatların yığılıb və yekun məlumatların hazırlanması ilə bağlı bütün işlər Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin iş planına uyğun olaraq həyata keçirilir.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

İlkin məlumatlar elektron formada toplandıqdan sonra araşdırılır və yoxlanılır, daha sonra istifadəçilərə çatdırılır. Bələdiyyə orqanının büdcəsinin icrasına dair məlumatlar həmçinin bülleten formasında da çap olunaraq istifadəçilərə çatdırılır. Lazım olduqda istifadəçilərlə söhbətlər aparılır və onları maraqlandıran suallara cavab verilir.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Rəsmi statistikanın keyfiyyətinin və ictimaiyyətin statistikaya inamının təmin edilməsi sahəsində işlərin təşkili və aparılması, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.
2000-ci ildə tərtib olunmuş hesabat formasına dair məlumatlar müəssisə və təşkilatlardan kağız formasında əldə edilirdi. Bu da müəyyən gecikmələrə, respondentlərə və əməkdaşlara düşən yükün artmasına səbəb olurdu.
2011-ci ildən etibarən informasiya texnologiyalarının imkanlarından geniş istifadə olunmağa başlanmışdır. Belə ki, hesabat formalarının yığılması ilə bağlı yerli özünüidarəetmə orqanları ilə aparılan bütün yazışmalar elektron poçt vasitəsilə aparılmış, formaların doldurulmasına dair göstərişlər Dövlət Statistika Komitəsinin veb-saytında Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinə aid olan bölmədə yerləşdirilmişdir http://www.azstat.org/f_st_relat/az/002.shtml.

Hesabat formaları müşahidə vahidləri tərəfindən onlayn rejimində qəbul edilmişdir. Bu da müşahidə vahidlərinin və şöbənin əməkdaşlarının vaxtına qənaət etməyə, həm də vaxtında və keyfiyyətli məlumatlar əldə etməyə imkan vermişdir.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

“Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununun VI fəslinin 16-cı maddəsinə əsasən statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir.
İlkin məlumatlar onlayn rejimində fərdi kompüterlər vasitəsilə əldə edildiyi üçün təhlükəsizliyi təmin etmək məqsədilə yalnız Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin ilkin məlumatlara baxmaq (düzəliş etmək üçün icazə yoxdur) imkanı vardır. Bu baxımdan da şöbə ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

## 11. Yekun

Gələcəkdə bu sahənin proqramlaşdırılması və keyfiyyətinin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi məqsədəuyğun hesab edilir.